“Silahlı Qüvvələrin yaradılması Azərbaycanın dövlət müstəqilliyini və suverenliyini təsdiq edən, onu nümayiş etdirən amillərdən biridir”.



Heydər ƏLİYEV


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 3 iyun 2015-ci il № 42 (1958) Qiyməti 25 qəpik


## Rəsmi xronika

***✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də Böyük Britaniyanın London şəhərinin Lord meri Alderman Alan Yarrounun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

***Dövlətimizin başçısı ölkələrimiz arasında siyasi, iqtisadi, enerji və digər sahələrdə yaxşı tərəfdaşlıq əlaqələrinin mövcud olduğunu dedi. Prezident İlham Əliyev Beynəlxalq Xəzər neft, qaz, neftayırma və neft kimyası sərgisi və konfransının artıq ənənəvi olaraq hər il keçirildiyini və tədbirə marağın ildən-ilə artdığını məmnunluqla qeyd edərək Böyük Britaniya Baş nazirinin sərgi və konfransa göstərdiyi diqqəti yüksək qiymətləndirdi. Son illər ölkəmizdə gedən sürətli inkişaf proseslərinə toxunan dövlətimizin başçısı paytaxtda böyük quruculuq işlərinin həyata keçirildiyini, müasir infrastrukturun və istirahət obyektlərinin yaradıldığını bildirdi.***

***Görüşdə ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsində bp-nin xüsusi rolu vurğulandı və əlaqələrimizin daha da inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğu diqqətə çatdırıldı.***

* * *

***✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də ATƏT-in fəaliyyətdə olan sədri, Serbiya Respublikası Baş nazirinin müavini və xarici işlər naziri İvitsa Daçiçin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

***Görüşdə Azərbaycan-ATƏT əməkdaşlığının perspektivləri, Azərbaycan ilə Serbiya arasında ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, enerji, humanitar və digər sahələrdə daha da inkişaf etdirilməsi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı gedən danışıqlar prosesi, təmas xəttində baş verən hadisələr, problemin həllinin uzadılması, münaqişənin həllinə yanaşmada ikili standartların mövcud olması və digər məsələlərlə bağlı geniş fikir mübadiləsi aparıldı.***

* * *

***✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də İraqın neft naziri Adil Əbdülmehdinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

***Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev əməkdaşlığımızın genişləndirilməsində müxtəlif səviyyəli qarşılıqlı səfərlərin önəmini qeyd etdi. Dövlətimizin başçısı enerji sahəsində əməkdaşlığın perspektivlərinin müəyyənləşdirilməsinin zəruriliyini vurğuladı.***

***Görüşdə bu gün Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə İraqın Neft Nazirliyi arasında imzalanan memorandumun energetika sahəsində əməkdaşlığın inkişaf etdirilməsi baxımından önəmi qeyd olundu.***

**AZƏRTAC-ın materialları əsasında**

## Ali Baş Komandan İlham ƏLİYEV:

# “Gün gələcək, Azərbaycan Ordusu öz sözünü deməli olacaq”



*"Buta" sarayında Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə keçirilən rəsmi qəbulda dövlətimizin başçısı son bir əsrdə ölkəmizin keçdiyi keşməkeşli inkişaf yoluna ətraflı nəzər saldı və xalqımızın tarixi taleyində dərin iz buraxmış hadisələrə dövlətçilik baxımından dəyər verdi.*

Təbii ki, ölkəmizin müstəqilliyindən bəhs edərkən müasir dövlətimizin sələfi sayılan Azərbaycan Xalq Cümhuriyyətini xatırlamamaq mümkün deyil. Xalqımızın böyük çətinliklər hesabına və ağır geosiyasi şəraitdə yaratdığı bu dövlət Şərqdə ilk demokratik bir quruluş kimi tarixə düşüb.

Prezident İlham Əliyev rəsmi qəbulda söylədiyi nitqində cəmi 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətilə bağlı yetərincə maraqlı və dəyərli fikirlər səsləndirdi, həmin dövrdə baş vermiş hadisələrin müsbət və mənfi tərəflərini politoloji baxımdan qiymətləndirdi: "Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması dünya miqyaslı tarixi hadisə idi. Çünki müsəlman aləmində ilk demokratik respublika yaradılmışdı. Biz fəxr edirik ki, bu tarixi Azərbaycan xalqı yazıb".

Xalqımızın Sovet dönəmində inkişaf etdiyini vurğulayan Prezident İlham Əliyev Azərbaycanın həmin dövrdə qazandığı böyük uğurları obyektivliklə şərh etdi: "Azərbaycanda o illərdə elm, təhsil inkişaf edirdi. Bu gün biz qürur hissi ilə deyirik ki, Azərbaycanda savadlılıq 100 faiz səviyyəsindədir. Bunun əsası, əlbəttə ki, Sovet dövründə qoyulmuşdur".

Dövlət başçısının vurğuladığı kimi, Sovet dönəmində ölkəmizin sürətli inkişafı ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrə təsadüf edir. Bununla bağlı dövlət başçısı bildirdi: " Məhz 1970-ci illərdən başlayaraq Azərbaycanda çox böyük quruculuq işləri aparılmışdır. Əgər 1970-ci illərə qədər Azərbaycan Sovet İttifaqında ən geridə qalmış yerlərdə idisə, 1980-ci illərin əvvəllərində Azərbaycan ən qabaqcıl respublikalardan biri idi. Rusiya Federasiyasından başqa, cəmi iki respublika donor kimi fəaliyyət göstərirdi, onlardan biri də Azərbaycan idi".

XX yüzilliyin sonlarında yenidən müstəqilliyinə qovuşan Azərbaycan bir sıra ağır xarici və daxili təhdidlərlə üzləşdi. O zaman Azərbaycanda hakimiyyət başına gəlmiş siyasi qüvvələrin səriştəsizliyi və Ermənistanın ölkəmizə qarşı ərazi iddiaları, elan edilməmiş müharibəsi müstəqilliyimizi təhlükədə qoymuşdu. Xalqımızın təkidli tələbilə zəmanəmizin böyük dövlət adamı olan Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra vəziyyət tədricən düzəlməyə başladı. Dövlətimizin müdrik başçısı o zaman daxili və xarici siyasi maneələri aşaraq ölkəmizi dinamik inkişaf yoluna çıxardı, "Əsrin müqaviləsi" imzalandı və bununla da dünyada dövlətimizin siyasi çəkisini artıran böyük iqtisadi layihələrə start verildi.

Azərbaycan tarixinin bu dönəmilə bağlı dövlət başçısı İlham Əliyevin düşüncələrinə fikir verək: "1993-cü ildə xalqın tələbi ilə ulu öndər Heydər Əliyev hakimiyyətə qayıdandan sonra vəziyyət sabitləşdi. Əlbəttə, sabitlik başlıca şərt idi ki, Azərbaycan inkişaf etsin. Siyasi sabitlik, ondan sonra iqtisadi sabitlik təmin edildi. 1995-ci ildə müstəqil Azərbaycanın Konstitusiyası qəbul edilmişdir, siyasi, iqtisadi islahatlar aparılmağa başlanmışdır. Bir sözlə, o tarix - 1993-cü il müstəqil Azərbaycanın yeni dövrünün başlaması idi. Əslində müstəqilliyimiz məhz o vaxt başlamışdır. O dövrdən başlayaraq bu günə qədər Azərbaycan sürətlə inkişaf edir".

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu gün Azərbaycan dövləti möhkəm əsaslar, milli maraqlar üzərində qurulub. Bizim milli ideologiyamız, azərbaycançılıq fəlsəfəsi bütün cəmiyyəti birləşdirir. Müstəqil Azərbaycan dövləti möhkəm milli dəyərlər üzərində qurulub.

Daxili sabitliyin təmin olunması və ölkəmizin iqtisadi qüdrətinin artması, dövlət rəhbərliyinin müxtəlif istiqamətlərdə fəal xarici siyasət yürütməsi Azərbaycanın xarici aləmdə də nüfuzunun yüksəlməsinə gətirib çıxarıb. Ölkəmiz artıq BMT-də, Avropa Şurasında sanballı söz sahibidir. Dövlət başçısı bununla bağlı bayram törənində dedi: "Biz beynəlxalq təşkilatlarda fəal iştirak edirik və bundan sonra da fəal iştirak edəcəyik. İlk növbədə, BMT-də və Qoşulmama Hərəkatında. Bu qurum BMT-dən sonra ölkələrin sayına görə ikinci təşkilatdır. Azərbaycan Qoşulmama Hərəkatına bir neçə il bundan əvvəl üzv olmuşdur və dərhal bu qurum Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü əsasında həlli ilə bağlı qətnamə qəbul etmişdir".

Ölkəmiz üçün ağrılı problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi daim Prezident İlham Əliyevin diqqət mərkəzindədir. Həmişə olduğu kimi, bu dəfə də dövlət başçısının problemin birdəfəlik və ədalətli həllilə bağlı söylədiyi fikirlər bütün azərbaycanlıların ürəyindən xəbər verir: "Xarici siyasətimizin əsas problemi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Burada da bizim siyasətimiz və mövqeyimiz birmənalıdır. Birincisi, Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır. Erməni lobbisinin çirkin səylərinə baxmayaraq, hesab edirəm, biz son illər ərzində apardığımız siyasət nəticəsində sübut edə bilmişik ki, bu, əzəli Azərbaycan torpağıdır. İkincisi, Dağlıq Qarabağ bütün beynəlxalq birlik tərəfindən Azərbaycanın ayrılmaz hissəsi kimi tanınır. Biz BMT-yə üzv olduqda Dağlıq Qarabağ da bütün dünya tərəfindən Azərbaycanın tərkib hissəsi, Azərbaycanın bir parçası kimi qəbul edildi.

Bu gün siyasi müstəvidə, əlbəttə ki, Azərbaycanın siyasi çəkisi Ermənistanın çəkisi ilə müqayisəedilməz dərəcədədir. Üçüncüsü, iqtisadi amildir. Azərbaycan iqtisadiyyatı Ermənistan iqtisadiyyatından ən azı on dəfə böyükdür və güclüdür. Əlbəttə ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi var. Postsovet məkanında buna oxşar münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurası qətnamə qəbul etməyib. Ancaq bu məsələ ilə bağlı qəbul olunmuş qətnamələrdə açıq-aydın göstərilir ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxmalıdır".

Azərbaycanın ərazi bütövlüyünün heç bir başqa ölkənin ərazi bütövlüyündən az əhəmiyyət kəsb etmədiyini vurğulayan Prezident İlham Əliyev bir daha bəyan etdi ki, Dağlıq Qarabağa heç vaxt heç bir müstəqillik verilməyəcək. Məsələ ərazi bütövlüyü çərçivəsində həllini tapacaq.

Təbii ki, bu münaqişənin həlli üçün dövlətin ədalətli mövqeyi, siyasi iradəsi ilə yanaşı, qüdrətli ordunun mövcudluğu da önəmli amillərdəndir. Bu səbəbdən, Azərbaycan rəhbərliyi ordu quruculuğunu prioritet vəzifə elan edib. Dövlətimizin və müstəqilliyimizin dayağı olan Azərbaycan Silahlı Qüvvələri bu gün ən müasir silah və texnika ilə silahlanıb, yüksək təchizata malikdir, güclü intizama və döyüş hazırlığına nail olmuş qüdrətli strukturdur. Təsadüfi deyil ki, Azərbaycan Ordusu beynəlxalq reytinq təşkilatları tərəfindən ən güclü ordular sırasına aid edilir.

Dövlət başçısı bayram mərasimində ordu quruculuğuna bir daha toxunaraq bildirib: "Son vaxtlar, keçən ilin yayından başlayaraq bu günə qədər Azərbaycan Ordusu təmas xəttində tam üstünlüyü təmin edib və düşmənə sarsıdıcı zərbələr endirib. Bu gün artıq Ermənistan rəhbərliyi etiraf edir ki, xarici yardım olmadan Azərbaycanın qabağını almaq mümkün olmayacaq. Biz isə həmişə deyirik ki, siz əgər ölmək istəmirsinizsə, Dağlıq Qarabağdan, işğal edilmiş torpaqlardan çəkilin. Ondan sonra sülh yarana bilər, ondan sonra Azərbaycan və erməni xalqları barışa bilərlər".

Ədavət və düşmənçiliyin əbədi olmamasını qeyd edən ölkə rəhbəri hadisələrə uzaqgörənliklə yanaşaraq hesab edir ki, sülhə nail olmaq üçün erməni silahlı qüvvələri Dağlıq Qarabağdan və işğal edilmiş torpaqlardan çəkilməlidir. Burada ən məqbul variant mərhələli həlldir: "Biz dəfələrlə bu barədə öz sözümüzü demişik. Ancaq mərhələli həll burada məsələnin həllinə gətirib çıxara bilər. Əks təqdirdə, Ermənistan bundan sonra da daim qorxu, təşviş, isterika, vahimə içində yaşayacaq və gün gələcək ki, artıq Azərbaycan Ordusu öz sözünü deməli olacaq".


**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Respublikası Müdafiə nazirinin Qırğızıstana rəsmi səfəri







***Qırğızıstanda rəsmi səfərdə olan Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti iyunun 1-də Bişkək şəhərindəki Qələbə meydanında yerləşən Əbədi məşəl abidə kompleksini ziyarət edərək əklil qoyub.***

Sonra Qırğızıstanın Müdafiə naziri cənab Abibilla Kudayberdiyev tərəfindən general-polkovnik Zakir Həsənovun rəsmi qarşılanma mərasimi keçirilib.

Nümayəndə heyətlərinin iştirak etdiyi görüşdə ölkələrimiz arasında aparılan danışıqların və keçirilən görüşlərin əhəmiyyəti vurğulanıb, hərbi sahədə əməkdaşlığın inkişafı, təcrübə mübadiləsi və kadr hazırlığı məsələlərinə xüsusi diqqət yetirilib.

Sonra Müdafiə Nazirliyinin nümayəndə heyəti Koy-Taş şəhərində yerləşən Qırğızıstan Silahlı Qüvvələrinin Döyüş Hazırlığı Mərkəzində olub. Mərkəzin tarixi, fəaliyyəti və strukturu haqqında qonaqlara brifinq təqdim olunub.

* * *

Qırğızıstanda rəsmi səfərdə olan Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov iyunun 1-də bu ölkənin Baş naziri cənab Temir Sariyevlə görüşüb.

Görüşdə iki ölkə arasındakı dostluq münasibətlərinin inkişafından razı qaldıqları bildirilib, müxtəlif strukturlar, o cümlədən müdafiə nazirlikləri arasında görüşlərin keçirilməsi yüksək qiymətləndirilib və bu cür əlaqələrin mövcud siyasi, iqtisadi, mədəni münasibətlərin tərəqqisi üçün yeni imkanlar açması ifadə edilib.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan cənab T.Sariyev münaqişənin tez bir zamanda sülh və siyasi yolla Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasının tərəfdarı olduğunu xüsusi vurğulayıb.

"Münasibətlərimiz yalnız ikitərəfli deyil, həm də BMT, ATƏT və digər təşkilatlar çərçivəsində çoxtərəfli formatda inkişaf edir. Hərbi əməkdaşlıq Qırğızıstan-Azərbaycan münasibətlərinin bütün spektrinin ən mühüm elementlərindən biridir və biz bu səmərəli əməkdaşlığın gücləndirilməsində və inkişafında maraqlıyıq", - deyə T.Sariyev bildirib.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov iki ölkənin hərbi sahədə, o cümlədən ordu quruculuğu və hərbi təhsil məsələlərində əlaqələrinin daha da genişləndirilməsinin tərəfdarı olduğunu qeyd edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.





* * *

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov iyunun 3-də Qırğızıstan Respublikasının Çolpon-Ata şəhərində keçiriləcək Müstəqil Dövlətlər Birliyi iştirakçı dövlətlərinin Müdafiə Nazirləri Şurasının növbəti iclasında iştirak edəcəkdir.

İclasda MDB çərçivəsində hərbi əməkdaşlıq məsələlərinin müxtəlif aspektlərinin müzakirə edilməsi planlaşdırılır.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

*Ön xətdən reportaj*

# Son söz sənindir, əsgər!

***Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin başlanmasından on illər ötsə də, təəssüf ki, o hələ də öz həllini tapmayıb. Azərbaycanın ərazi bütövlüyünə qəsb etmiş Ermənistan hələ də işğalçılıq siyasətindən əl çəkmir. Artıq cəbhədə atəşkəsin əldə olunmasının 21 ili tamam olub. Bu müddət ərzində dövlət başçıları arasında dəfələrlə münaqişənin sülh yolu ilə həllinə dair görüşlər keçirilsə də, hələlik, heç bir nəticə hasil olmayıb. Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə Ermənistanın işğalçılıq siyasəti ilə barışmayacağını və ölkəmizin ərazi bütövlüyünün təmin olunması üçün beynəlxalq hüquq normalarına əsaslanaraq bütün imkanlardan istifadə edəcəyini bildirib. Lakin Ermənistan tərəfinin işğalçılıq mövqeyindən əl çəkməməsi problemin sülh yolu ilə həllini əngəlləyən başlıca amildir.***



20 ildən artıq davam edən atəşkəs dövründə Ermənistan tərəfindən mövqelərimizə dəfələrlə hücum olub, hətta qarşı tərəf ağır artilleriya silahlarından istifadə etməkdən çəkinməyib. Bu cür basqılar bir daha onu göstərir ki, qarşı tərəf münaqişənin sülh yolu ilə həllinin tərəfdarı deyil. Ancaq Ermənistan tərəfi unudur ki, Azərbaycanda vahid komandanlıq altında gün-gündən güclənən, ən müasir silah və texnika ilə təchiz olunan bir ordu formalaşıb. Cəbhə bölgəsində mövqe tutan ordumuzun bölmələri istənilən an erməni diversiya-təxribat qrupunun qarşısını almaq gücündədir və düşmənə heç zaman məqsədinə çatmağa imkan verməyəcəkdir.

Bu yaxınlarda düşmənlə üz-üzə mövqelərimizə yolum düşdü. Gecə-gündüz demədən səngərdə ayıq-sayıq növbə çəkən döyüşçülərlə ilk görüşüm deyildi. Yüksək bir təpədə mövqe tutan gözdən iti oğullarımız hər zaman olduğu kimi, bu dəfə də döyüş növbəsində ayıq-sayıqdılar. Post başçısı çavuş Vüsal İsmayılov hərbi qaydada özünü təqdim edir. Üz-gözündən məğrurluq duyulan gənc döyüşçü tərəddüd etmədən qarşıdakı düşmənin harada yerləşdiyi barədə məlumat verdi. Hiss olunur ki, kiçik komandir düşmən haqqında yetərli məlumata malikdir. Düşmənin atəş sektorlarından danışan çavuş çox da uzaqda olmayan erməni postunu nişan verərək deyir:

- Ermənilər daha çox oradan mövqelərimizi atəşə tuturlar. Biz oradan bir an belə gözümüzü çəkmirik. Vaxtında cavab atəşi açan kimi düşmən susur. Fasiləsiz müşahidə aparırıq. Gecə və dumanlı havalarda müşahidəni artırırıq. Çünki mövqeyimizə soxulmaq istəyən düşmən belə havada niyyətini həyata keçirməyə cəhd edir.

...Müşahidə yerində əsgərlərdən Xəyal Həsənovla görüşürəm. O, bir ildir ki, Astara rayonundan ordu sıralarına çağırılıb. Gündüz və gecə vaxtı ərazidə nə müşahidə olunarsa, dərhal bu haqda jurnala qeydlər apardığını bildirdi.

Əsgərlərin müşahidə aparması üçün postda oriyentirlər sxemi, müşahidə cihazları və başqa lazım olan avadanlıqlar var. Görünmədən görmək müşahidəçi üçün ən vacib şərtdir. Buna əməl etmək isə hər bir döyüşçünün borcudur. Müəyyən edilmiş qaydalara əməl etməklə, ən azından özünün təhlükəsizliyini təmin edirsən.



Başqa bir müşahidəçi əsgər Niyaz Ağayev də ayıq-sayıqlığı ilə seçilən döyüşçülərdəndir. O, Memarlıq və İnşaat Universitetini bitirib. Əslən Qərbi Azərbaycandan olan əsgər deyir ki, doğma dədə-baba ocağında olmayıb. Ancaq o yerləri görmək həsrətindədir. Qarşıda ucalan qarlı dağların arxası doğma yerlərimizdi, - deyə gənc döyüşçü köks ötürür.

Bəli, Niyaz o yerlərdə olmasa da, valideynləri onun görüşünə gələndə, buradan doğulub boya-başa çatdıqları el-oba yerlərini nişan veriblər. O gündən Niyaz dağların o üzündə yerləşən ata ocağının xiffətini çəkir. Əsgərin dədə-baba yerlərinə qovuşmaq arzusu onun Vətənə bağlılığından irəli gəlir. Bu gün düşmənlə üz-üzə dayanan yüzlərlə Vətən oğlu kimi Niyaz Ağayev də yağıların əlində qalan torpaqlarımızın tezliklə azad olunacağı günün həsrətindədir.

Əsgər səngərdə gecə-gündüz demədən müşahidə aparır. Və yaxşı bilir ki, səngərin önü də, arxası da, sağı da, solu da Vətəndir. Heyf ki, Vətən adlı məmləkəti başdan-başa dolana bilmir. "Xain ermənilər bax, beləcə Vətənimi ikiyə ayırıblar. İndi səngərdən öndə olan el-obanın həsrətindəyəm. Görəsən, bu nisgil, bu həsrət çoxmu çəkəcək?" Bu fikirlər daim Niyazın beynində dolaşır. Amma o, yaxşı bilməlidir ki, bu yolda son sözü Azərbaycan əsgəri deyəcək!

**Mayor
Bəxtiyar ƏLİYEV,
"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edəcəklər

İyunun 1-dən 4-dək Bakı şəhərində Azərbaycan-Türkiyə Hərbi Dəniz Qüvvələrinin əməkdaşlıq iclası, iyunun 1-dən 5-dək Sarayevo şəhərində (Bosniya və Herseqovina) "NATO-nun regional kollektiv təlimi-2016"-nın planlaşdırılması üzrə birinci işçi görüşü, iyunun 1-dən 12-dək Budapeşt şəhərində (Macarıstan) qərargah zabitləri üçün hərbi terminologiya kursu, iyunun 1-dən 19-dək Qarmiş-Partenkirxen şəhərində (Almaniya) dil testi üzrə təkmilləşdirmə seminarı keçiriləcək.

Tədbirlərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri iştirak edəcəklər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

***1 iyun 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 82 dəfə pozub.

Ermənistan Respublikasının İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərindən Qazax rayonunun Qızılhacılı kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Silahlı Qüvvələrimizin mövqeləri Tərtər rayonunun Göyarx, Ağdam rayonunun Şuraabad, Şıxlar, Şirvanlı, Qaraqaşlı, Sarıcalı, Cəvahirli, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qorqan, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən atəşə məruz qalıb.

Düşmən cavab atəşi ilə susdurulub.

***2 iyun 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 63 dəfə pozub.

Ermənistan Respublikasının İcevan rayonunun Vazaşen kəndində yerləşən mövqelərindən Qazax rayonunun ərazisindəki adsız yüksəkliklərdə, Berd rayonunun Mosesqex kəndində yerləşən mövqelərindən Tovuz rayonunun Ağdam kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Silahlı Qüvvələrimizin mövqeləri Goranboy rayonunun Talış, Tapqaraqoyunlu, Gülüstan, Tərtər rayonunun Yarımca, Göyarx, Çiləbürt, Qızıloba, Ağdam rayonunun Şuraabad, Şıxlar, Qaraqaşlı, Kəngərli, Baş Qərvənd, Yusifcanlı, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Aşağı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən də atəşə məruz qalıb.

Düşmən cavab atəşi ilə susdurulub.

# ATƏT Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində səylərini artırmalıdır

***İyunun 1-də Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov ATƏT-in fəaliyyətdə olan sədri, Serbiya Respublikası Baş nazirinin müavini və xarici işlər naziri İvitsa Daçiçin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.***

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə ATƏT arasında əməkdaşlıq əlaqələrindən, Azərbaycan-Serbiya münasibətlərinin inkişaf etdirilməsindən, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və onun həlli istiqamətində mövcud vəziyyətdən danışılıb.

Milli Məclisin sədri Oqtay Əsədov bildirib ki, Azərbaycan ATƏT ilə əlaqələrin inkişafına böyük önəm verir. Artıq Azərbaycan 20 ildən çoxdur ki, ATƏT ilə işbirliyi həyata keçirir. Azərbaycan parlamentinin də ATƏT-in Parlament Assambleyası ilə sıx əlaqələri mövcuddur. Deputatlarımız qurumun bütün toplantılarında fəal iştirak edirlər. Ötən il ATƏT-in 23-cü sessiyası Bakıda keçirilib.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və onun həlli ilə bağlı danışıqlar prosesi barədə məlumat verən Oqtay Əsədov deyib: "Təəssüflər olsun ki, danışıqların getdiyi 20 ildən artıq müddət ərzində ATƏT-in Minsk Orupu hələlik ortaya normal bir sənəd çıxara, bu münaqişənin həlli üçün normal bir yol göstərə bilməyib". Milli Məclisin sədri vurğulayıb ki, Minsk qrupunun işinə təkan vermək, onu canlandırmaq lazımdır. ATƏT münaqişənin həlli istiqamətində səylərini artırmalıdır.

Oqtay Əsədov deyib: "Şadıq ki, Serbiya ATƏT-ə sədrlik edən ölkədir. Serbiya münaqişədən əziyyət çəkmiş bir ölkə kimi Azərbaycanın vəziyyətini bir çox dövlətlərdən daha yaxşı başa düşür. Ümid edirik ki, Serbiyanın sədrliyi dövründə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində hər hansı müsbət addımlar atılacaq".

Azərbaycan-Serbiya münasibətlərindən danışan Milli Məclisin sədri vurğulayıb ki, ölkələrimiz arasındakı əlaqələr yüksək səviyyədədir. Əlaqələrin inkişafında dövlət başçılarının qarşılıqlı səfərləri mühüm rol oynayır. Səfərlər zamanı ölkələrimiz arasında 25-ə yaxın ikitərəfli sənəd imzalanıb. Bugünkü görüş də münasibətlərin dərinləşməsinə öz töhfəsini verəcək.

Oqtay Əsədov iqtisadi əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyini diqqətə çatdırıb.

İvitsa Daçiç bildirib ki, Azərbaycana səfər etmək onun üçün şərəfdir. Ölkələrimiz arasında dostluq əlaqələri var. O deyib ki, Azərbaycanda keçiriləcək birinci Avropa Oyunlarının açılışında Serbiyanın Prezidenti də iştirak edəcək. Səfər zamanı məhsuldar görüşlər keçirdiyini bildirən İvitsa Daçiç regionda sülhün və sabitliyin bərqərar olmasının bütövlükdə Avropa üçün böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb. ATƏT-in fəaliyyətdə olan sədri deyib ki, Dağlıq Qarabağ münaqişəsi uzun müddətdir həll olunmamış vəziyyətdə qalır. Serbiya Azərbaycanın üzləşdiyi problemi yaxşı başa düşür. O, əminliyini bildirib ki, münaqişənin həlli ilə bağlı birlikdə müəyyən işlər görüləcək.

*Əməkdaşımız ezamiyyətdən qayıdıb*

# “Əl uzatsan, göyə dəyər”



...Dağlar görünür, könlüm haldan-hala düşür. Neçə illərdi canım dağlara tərəf qara yelənli duman sürünür. Nəyə tamsılandığı bəllidi - işğal dumanıdı. "Qüdrətdən səngərli-qalalı dağların" (Aşıq Ələsgər) qürurunu görür, qürurlu dağları səngər bilənlərin qətiyyətini görür. Bir az da qaralmağa, bir az da irəli gəlməyə cəsarəti çatmır...

Tufarqanlı Abbas "Nə gözlərim səni görsün, Nə könlüm qübar eyləsin" - deyirdi. Bu dağları səngər bilən, dağların "əllərindən yapışan" torpaqları qoruyan oğullar "Duman, çəkil bu dağlardan!" - deyir. Dumanın - işğalın rəngi avazıyır...

UAZ ağır-ağır irəliləyir. Dəniz səviyyəsindən təxminən 3000 metr yüksəkliyə qalxmalıyıq. Yolun sağında-solunda çadırlar görünür; əhali öz güzəranındadı, çox da uzaqda olmayan düşmənin vaxtlı-vaxtsız atışlarından qətiyyən çəkinmir. Ordumuza inanır. Bilir ki, düşmən bu həndəvərlərə qətiyyən yaxın düşə bilməz.

Səngərlər görünür, könlüm tellənir...

Səngərdə döyüş növbəsində olan oğulları görüncə, sinəm ürəyimə darlıq eləyir. 1993-cü ilin payızında "İsgəndər qalası"nda döyüş növbəsində dayanan oğullarla kəlmələşəndə də, bu hala düşmüşdüm, Mutudərədə də, elmi araşdırmalarını dayandırıb hərbi xidmətə gələn kimya elmləri doktoru Salman Rzayevdən müsahibə götürəndə də, hərbi hissənin qərargahı qarşısında şəhid atasının "Şəhid oğlumun əvəzinə vuruşacam!" sözünü eşidəndə də...

Bir azdan Göyçə gölünü görəcəm. Könlüm qübarlanacaq, nəfəsimi dərməmiş pıçıldayacam:

...göycə bizi,
Əzizlə göycə bizi.
Alagöllərdə gördü,
Səslədi Göyçə bizi...

Alagöllərin sol qanadında, üzü bu tərəfə bir kənd görəcəyəm. Qızılkəndi. 27 ildi səsinə-nəfəsinə həsrət qaldığımız oğuz ellərindən birini...

Əsgərlərlə doğmalarımız kimi görüşürük. O baxışlarda dərunu bir sevgi görürəm. Vətənə ad olan sevgidi. Ona görə belə qətiyyətlidi, ona görə belə bənzərsizdi, ona görə yerə-göyə meydan oxuyur, ona görə gözlərimizi çəkə bilmirik!..

...Mayor Rüstəm Məmmədov da, leytenant da, əsgərlər də haldan-hala düşdüyümü hiss eləyir...

Leytenant məni görüncə gülümsünür. Tanıyıram. 2013-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin "And içirəm!.." qəzeti üçün məqalə hazırlayanda tanımışdım. Onda dediklərini də xatırlayıram: "Ön xətdə xidmət etmək istəyirəm. Həm də Ali Baş Komandanın arzuladığı səviyyədə".



"Əl uzatsan, göyə dəyər", - bu ucalıqdan var səsimlə qışqırmaq istəyirəm: Budur, Azərbaycan zabitinin Vətən sevgisi! Vətən üçün yaşayanların amalı budur!..

“Aparılan islahatlar nəticəsində ordumuzun döyüş hazırlığı yüksəlib. Ali Baş Komandanın, Müdafiə nazirinin vaxtaşırı döyüş bölgələrinə gəlməsi, əsgərlərimizə bilavasitə səngərlərdə məsləhətlər, göstərişlər verməsi şəxsi heyətin mənəvi hazırlığını da artırıb. Ordumuz torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Bunu düşmən də yaxşı bilir", - mayor Rüstəm Məmmədov belə deyir.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun bir fikrini xatırlayıram: "Ən etibarlı silah yaxşı öyrədilmiş əsgərdir". Doğrudan da, hərbi bilikləri mükəmməl mənimsəmiş əsgər ordunun döyüş hazırlığını şərtləndirən başlıca amillərdəndir. Polkovnik-leytenant Oruc Abdullayev deyir ki, əsgər nəzəri baxımdan istənilən silahın istismar xüsusiyyətlərini bilməli, ona həvalə edilmiş və edilməsi ehtimal olunan silahlardan lazımınca istifadə etməyi bacarmalıdır.



- Ağdam, Füzuli burdan uzaq olsa da, könlümüzdən iraq deyil. Orda gedən döyüşləri biz də ciddi izləyirik. Ötən ilin avqust hadisələri zamanı bu hərbi hissənin əsgərlərinin döyüşə can atmasının qarşısını çətinliklə aldıq. Emosiya əmri qabaqlaya bilməz. Orda döyüşlər bir qədər də davam etsəydi, əsgərlərimizin qarşısını saxlamaq, yəqin ki, mümkün olmayacaqdı, - leytenant Anar Xalverdiyev deyir. - Düşmən bu tərəflərdə də müxtəlif atıcı silahlardan vaxtlı-vaxtsız atəş açır. Hər dəfə də bizdən ciddi cavab alıb susur. Görür ki, Azərbaycan əsgəri döyüş növbəsində ayıq-sayıq dayanır.

Növbətçi əsgər bizi görüncə ayağa qalxır...

3000 metr yüksəklikdə əsgərlərimiz üçün yaradılmış şərait qibtəediləcək dərəcədə gözəldir. Döyüş bölgələrindən uzaqda yerləşən hərbi hissələrdəki şərait səviyyəsində gözəldir.

Gözucu masanın üstündəki qəzetə baxıram. Fərəhdən ürəyim uçunur: Əsgər dəniz səviyyəsindən 2972 metr yüksəklikdə "Azərbaycan Ordusu" qəzetini oxuyur! Cavidan Məmmədəliyevdi. Hərbi xidmətə Bakı şəhərindən çağırılıb. Əsgərin alnından öpürəm...

Asim Hüseynov Hacıqabul rayonunun Meyniman kəndindəndir. Bu hərbi hissədə xidmət edib. Xidmətdən sonra burda qalmaq, xidmətini müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi davam etdirmək istəyib. Xahişinə əməl edilib. Öyrənirəm ki, digər qardaşları da hərbçidir.

Çoban Bəhramzadənin səmimiyyətlə dediklərindən bir ürək tutumunca qürurlanırıq:

- Bizə nələr tapşırıldığını, nəyin keşiyində olduğumuzu yaxşı başa düşürük və buna çox ciddi yanaşırıq. Bilirik ki, xırda bir diqqətsizlik ağır nəticələr verə bilər. Dünən (29 may - R.F.) düşmən avtomat və pulemyotlardan atəş açdı. Təxminən 1 saata yaxın atışdıq. Üzeyir Əliyev, Vüsal Paşayev, Cavidan Məmmədəliyev ...kimi əsgərlərimizlə nəinki biz, ümumən hərbi hissəmiz fəxr edir...

Çox da uzaqda olmayan bir topa qara buludun rəngi avazımaqdadı. Bu tərəflərə meyillənməyə cəsarət eləmir - geri çəkilir...

Döyüş növbəsinə gedən əsgərlərin baxışlarında gördüklərim, duyduqlarım Vətən sevgisinin özüdü!...

**Rəşid FAXRALI,**
**"Azərbaycan Ordusu"**

*Təlim*

# “Hər kəs uğur qazanmaq əzmindədir”



***Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən, Silahlı Qüvvələrin hərbi hissə və birləşmələrində döyüş hazırlığının artırılması və yoxlanılması məqsədi ilə təlimlər keçirilir. Zabit və əsgərlər bu təlimlərdə fəal iştirak edərək nəyə qadir olduqlarını göstərir, təcrübə və səriştələrini artırırlar.***

Bu günlərdə "N" hərbi hissəsində keçirilən təlimdə biz də iştirak etdik. Zabit Elçin Kərimov keçirilən təlimlərdən söz açaraq bildirdi ki, hərbi hissə və birləşmələrin şəxsi heyəti təlimlərdə fəallıq göstərir. Hər bir zabit, hər bir əsgər uğur qazanmaq üçün üzərinə düşən tapşırığı peşəkarlıqla yerinə yetirməyə çalışır.

Geniş düzənliyin içindən keçən torpaq yollarla xeyli gəlib təlim keçirilən əraziyə çatdıq. Ayrı-ayrı bölmələr ətrafda - yaşıllıqlar qoynunda mövqe tutmuşdu. Zirehli texnikalar, artilleriya qurğuları, döyüş maşınları təlimin qaydalarına uyğun olaraq maskalanmışdı. Həm şəxsi heyət, həm də silahlar təlimə və döyüşə hazır vəziyyətə gətirilmişdi.

Zabit və əsgərlərlə görüşüb söhbət edirik. Neçə gündən bəri çöl şəraitində yaşasalar da, heç kəsin üz-gözündə yorğunluq hiss olunmur. Şəxsi heyətin üzündə qələbə və mübarizlik əzmi var idi. Bir az keçmiş yüksək rütbəli zabit Xəqani Cəbrayılov da təlim meydanına gəldi. O, mövqeləri gəzib zabit və əsgərlərlə görüşdü, onlara müvafiq əmr və tapşırıqlar verdi, tövsiyələrini çatdırdı.

Arada yaranmış vaxtdan istifadə edib təlimdə fəal iştirak edən rabitəçilərlə görüşüb söhbət etdik. Mayor Həsən Mahmudov bizi qarşılayaraq bildirdi ki, "həyəcan" siqnalı verilən kimi hərbi hissənin şəxsi heyəti qısa müddət ərzində hazırlaşıb cəmləşmə rayonuna yola düşdü. Təyin olunmuş əraziyə çatan kimi mövqelər tutuldu, işə başlandı. Az vaxtda yuxarı qərargahla və tabeçilikdə olan bölmələrlə rabitə əlaqəsi quruldu. Sutka ərzində dayanıqlı rabitə növbəliliyi yaradıldı. Qarşıya qoyulan tapşırıqlar peşəkarlıqla icra olundu.



Zabit sözünə davam edərək təlimdə fərqlənənlərdən kapitan Anar Babayev, baş mühəndis kapitan Mehman Abdurrəhimov, gizirlərdən Ramil Quluyev, Elxan Bünyadov, əsgərlərdən Təyyar Həsənov, Rasim Əlizadə və başqalarının adlarını çəkdi.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

***Torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş Nəcəf Allahverdiyev haqqında yazının qələmə alınmasına onun əkiz qardaşı Qulu ilə yol yoldaşlığım səbəb oldu.***




*Heç kim unudulmur*

# Qoşa qanadın biri...

Deyirlər ki, insan yolda tanınar. Yəni tanımadığın birisi ilə yol yoldaşı olmayınca onun necə insan olduğunu müəyyən etmək bir az çətindir. Belə baxanda, yolu güzgüyə də bənzətsək, yəqin ki, yanılmarıq; yol insanın necəliyini, hansı xarakterə sahib olduğunu göstərir. Tanışlıq zamanı hərbi jurnalist olduğumu biləndən sonra Qarabağ müharibəsində iştirak etdiyindən və döyüşlərdə qardaşını itirdiyindən ürək ağrısı ilə danışdı:

- Hər ikimiz arxa hərbi hissələrin birində xidmət edirdik. Günlərin birində qardaşım Nəcəf döyüşlərə yollanmaq istəyini bildirdi. Mən də onunla razılaşdım. Ertəsi gün birlikdə cəbhə bölgəsinə yollandıq. 1993-cü ilin yayında torpaqlarımız uğrunda qanlı döyüşlər gedirdi. Hər gün cəbhədən acı xəbərlər gəlirdi. Ürəyimiz intiqam hissi ilə döyünürdü. Erməni işğalçıları ilə ilk döyüşümüz Ağdam rayonunun Mərzili kəndi istiqamətində oldu. Nəcəf qorxu bilmədən vuruşurdu. Yanındakı əsgərlərə də ürək-dirək verirdi. Mən də Nəcəfdən geri qalmırdım, bir səngərdə vuruşurduq.

Son günlər ermənilər Ağdam rayonunda daha da fəallaşmışdılar. Düşmən strateji əhəmiyyəti olan bu ərazini ələ keçirməyə çalışırdı. Biz müqavimət göstərir, qəsbkarların irəliləməsinə imkan vermirdik.

1993-cü il dekabrın 24-ü idi. Səhərə yaxın ermənilər qəflətən mövqelərimizə hücum etdilər. Odlu güllələrin əlindən göz açmaq olmurdu. Nəcəf yuxarı tərəfdə vuruşurdu. Günortaya yaxın döyüşçülərimiz Nəcəfin yaralandığını dedilər. Tez özümü ona çatdırdım. Qardaşım daha əlverişli mövqe tutmaq istərkən düşmən gülləsinə tuş gəlmişdi. Onun ölümündən sarsıldım. Ağrısını çəkənlər yaxşı bilirlər ki, qardaş itirmək nə deməkdir. Nəcəfi Ağcabədi rayonundakı Şəhidlər xiyabanında torpağa tapşırdıq. Düşmənə nifrətim, kinim daha da artdı.

Söhbət zamanı Quludan onu da öyrəndim ki, əkiz qardaşlar 1973-cü ildə yeddi bacıdan sonra dünyaya göz açıblarmış. Onların dünyaya gəlişi atası Qüdrətə, anası Qubaya bir dünya sevinc gətirib. 1993-cü il dekabrın 24-də əkizlərdən biri - Nəcəf şəhid olub. Valideynlər təskinliyi onda tapırlar ki, övladları torpaq uğrunda, Vətənin azadlığı naminə döyüşərkən şəhid olub. Onun məzarı tək doğmalarının yox, hər bir azərbaycanlının ziyarətgahına çevrilib.

**V.MƏMMƏDQULUOĞLU,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Bakı-Xırdalan-Sumqayıt sərnişin qatarı I Avropa Oyunlarından sonra işə düşəcək



Dəmir yolunun Bakı-Xırdalan-Sumqayıt sərnişin sahəsində əsaslı təmir işləri "Bakı-2015" birinci Avropa Oyunlarından sonra başa çatacaq.

Bu barədə AZƏRTAC-a "Azərbaycan Dəmir Yolları" QSC-nin mətbuat katibliyinin rəisi Nadir Əzməmmədov məlumat verib.

O bildirib ki, 63 kilometr uzunluğunda dəmir yolunun 46 kilometrlik hissəsi əsaslı təmir olunub, qalan hissədə isə təmir işləri sürətli şəkildə davam etdirilir. Təmir işləri başa çatdıqdan sonra Bakı-Sumqayıt və əks istiqamətdə sərnişinlərə xidmət edəcək İsveçrənin "Stadler Rail Group" şirkətinin istehsalı olan KİSS markalı ikimərtəbəli elektrik qatarının 2-si artıq gətirilib. Digər 3 elektrik qatarı isə bu ilin sonuna kimi gətirilərək xəttə buraxılacaq.

## Yozef Blatter Aİ-yə və ABŞ-a qarşı əks-hücuma keçib



FİFA-nın başçısı vəzifəsinə beşinci dəfə seçilən Yozef Blatter bu gün İsveçrənin RTS telekanalının efirində onu istefaya getməyə çağıran UEFA-nın prezidenti Mişel Platininin ünvanına təhdidlərlə çıxış edib. FİFA-nın başçısı deyib: "Mən hər kəsi bağışlaya bilərəm, lakin mən heç nəyi unutmuram".

SID agentliyi xəbər verir ki, Y.Blatter yenidən seçiləndən dərhal sonra işarə edib ki, FIFA-nın rəhbərliyində yerdəyişmələr edəcək və bu yerdəyişmələr Avropanın xeyrinə olmayacaq. Y.Blatter bu yaxınlarda İsveçrədə FIFA funksionerlərinin həbs olunmasını Birləşmiş Ştatların 2022-ci ilin dünya çempionatını təşkil etmək hüququ uğrunda mübarizədə Qətərə uduzmasına görə Vaşinqtonun qisası ilə əlaqələndirərək, Amerika ədliyyə orqanlarını nüfuzdan salmağa çalışıb.

## BMT baş katibi: “İŞİD və digər terror qruplaşmalarının tərkibində döyüşən əcnəbilərin sayı 70 faiz artıb”



"Ötən ilin yayın ortasından bu ilin mart ayınadək İŞİD və digər terror qruplaşmalarının tərkibində döyüşən əcnəbi terrorçuların sayı 70 faiz artıb". Bunu BMT baş katibi Pan Gi Mun Təhlükəsizlik Şurasının iclasında deyib.

O bildirib ki, Suriya, İraq, Əfqanıstan, Yəmən və Liviyaya dünyanın 100 ölkəsindən 25 mindən çox terrorçu gedib: "Heç bir ölkə bu problemi təkbaşına həll edə bilməz. BMT-yə üzv dövlətlər sərhəd nəzarəti ilə bağlı güclü mexanizm hazırlamalı, habelə insan haqlarının müdafiəsi və hüquq normaları əsasında ədliyyə sistemini gücləndirməlidir".

Baş katib qeyd edib ki, bu il Baş Assambleyaya hərbi ekstremizmin qarşısının alınması ilə bağlı Fəaliyyət Planını təqdim edəcək.

## Əhməd Davudoğlu: “Yardım türkmənlər üçün nəzərdə tutulub”



Türkiyənin baş naziri Əhməd Davudoğlu "Cumhuriyet" qəzetində Suriyaya silah-sursatın göndərilməsi ilə bağlı dərc olunan foto və video görüntülərə münasibət bildirib. Baş nazir bunu Suriya türkmənlərinə yardım adlandırıb.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da məqaləyə kəskin reaksiya verib: "Suriyadakı qardaşlarımıza göndərdiyimiz yardımın qabağını kəsməklə onların ölümünün səbəbkarı oldular. Utanmadan, çəkinmədən türkmənlərə göndərilən yardımlarla bağlı spekulyasiyalara girdilər. Bu casusluqdur, agentlərin əməlidir!"- deyə Ərdoğan qeyd edib.

Qeyd edək ki, qalmaqallı görüntülərin məhz 2014-cü ilin yanvarında Adana bölgəsində Milli Kəşfiyyat İdarəsinə məxsus yük maşınlarına keçirilən baxış zamanı çəkildiyi iddia edilir.

## Pakistan: yaraqlılar avtobus sərnişinlərini qətlə yetiriblər



Pakistanın Belucistan əyalətində iki sərnişin avtobusunu ələ keçirən yaraqlılar azı 19 nəfəri qətlə yetiriblər. AZƏRTAC Euronews telekanalına istinadla xəbər verir ki, Belucistan əyaləti polisinin məlumatına əsasən, hücumda 15 nəfərdən 20 nəfərədək silahlı şəxs iştirak edib. Girovlardan beşini azadlığa buraxan yaraqlılar hadisə yerindən qaça biliblər.

Pakistan ərazisində fəaliyyət göstərən heç bir qruplaşma hələ ki, hadisənin məsuliyyətini öz üzərinə götürməyib.

Xatırladaq ki, mayın 13-də İŞİD qruplaşmasının yaraqlıları Kəraçi şəhərində içərisində İsmaili təriqəti üzvlərinin olduğu avtobusu atəşə tutmuşdular. Nəticədə 46 nəfər ölmüş, 15 nəfər isə yaralanmışdı.

## İtaliya sahil mühafizə xidməti 3300 miqrantı xilas edib



İtaliya sahil mühafizə xidməti 3300 miqrantı xilas edib.

AZƏRTAC xəbər verir ki, bu barədə France Press məlumat yayıb.

"Sos" siqnalı Aralıq dənizində 17 qayıqdan daxil olub. Miqrantlardan 17-sinin cəsədi tapılıb. Onların hansı səbəbdən ölməsi hələ məlum deyil.

Xilasetmə əməliyyatında Almaniya mütəxəssisləri və İrlandiya gəmiləri də iştirak edir.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

AZƏRBAYCAN ORDUSU

# Onları dostlaşdıran Vətəndir

***İlin-günün bu vədəsində zümrüd kimi yaşıl örtüyə bürünən bu yerlər necə cazibədar və əsrarəngizdir. Belə təbii gözəllik insanın ruhunu oxşayır və xəyal insanı çox uzaqlara aparır.***



Amma bura cəbhə bölgəsidir. Atəşkəs şəraitində yaşasaq da, bölmələrimiz cəbhə bölgəsində, düşmənlə təmas şəraitində döyüş növbəsi aparır. Bu yaxınlarda ezamiyyətdə olarkən burada xidmət edən əsgərlərimizin ovqatı ilə yaxından maraqlandım. Komandirlər nümunəvi xidmətilə seçilən döyüşçülərimiz barədə ürək dolusu danışdılar.

- Burada, cəbhə bölgəsində xidmət edən, gecə-gündüz ölkəmizin ərazi bütövlüyünü qoruyan hər bir əsgər cəsurdur, layiqlidir, - bizimlə söhbətində zabit Səməd Məmmədov dedi. - Azərbaycanın hər bir bölgəsindən çağırılmış əsgərlər burada döyüş növbəsi aparır, Vətənimizin müdafiəsində ayıq-sayıq dayanırlar. Onlar burada bir-birilə dostlaşır, sözün həqiqi mənasında, silahdaşa çevrilirlər.

Bölmələrimizdən birində nümunəvi xidmətilə seçilən belə döyüşçülərimiz barədə qeydlər götürmək istədiyimi bildirdim. Ölkəmizin müxtəlif bölgələrindən hərbi xidmətə çağırılmış əsgərlər burada təkcə silahdaş deyil, həm də bir ailənin üzvləri kimi yaxınlaşıb, doğmalaşıblar.

- Hesab edirəm ki, bölüyümüzün bütün əsgərləri nümunəvidir, - zabit Vasif Bədəlov söylədi. - Onların hər biri öz əsgəri vəzifəsinə məsuliyyətlə yanaşır. Bununla belə ən yaxşılar sırasında əsgər Səməd Şiriyevin və Pərviz Rəşidovun adlarını çəkmək istərdim. Onlar bizim ən nümunəvi döyüşçülərimizdəndir.

Hər iki əsgərlə söhbət etdik, onlarla yaxından tanış olduq. Vətən oğullarını burada əsgəri xidmət, düşmənlə təmas şəraitində döyüş növbəsi aparmaq daha da yaxınlaşdırıb. Necə deyərlər, hamı bir nəfər üçün, bir nəfər hamı üçün prinsipi ilə xidmət aparırlar.

Məlum oldu ki, sakit təbiətli, ilk baxışdan intizamlı təsiri bağışlayan ortaboylu Səməd əslən ölkəmizin dilbər guşələrindən olan Lerik rayonundandır. O, hərbi xidmətə ötən ilin oktyabrında çağırılıb, hərbi hissələrimizin birində gənc əsgər kursu keçib, Vətənimiz Azərbaycana sədaqət andı içib.

- Əsgər Səməd Şiriyev də, Pərviz Rəşidov da bölməmizə gələn gündən çalışqanlığı, öz peşəsinə məsuliyyətlə yanaşmaları ilə yadda qalıblar, - zabit Rafael Salamov dedi. - Onlar bacarıqlı, cəsur, öz silahını sevən və həmişə ona diqqətlə yanaşan döyüşçüdürlər, öz silahdaşlarına nümunədirlər.

Qızmar günəş altında sirsifəti yanıb-qaralmış əsgər Şiriyev də, Rəşidov da zəhmətkeş ailədə böyüyüb boya-başa çatıblar.

Uşaq vaxtlarından Səməd ev-təsərrüfat işlərində ata-anasına dayaq olub. Hərbi xidmətə qədər peşə vərdişləri də qazanıb və dülgər ixtisasına yiyələnib.

Pərviz də Səməd kimi ötən ilin oktyabrında Şabran rayonunun Gəndab kəndindən hərbi xidmətə çağırılıb. Komandirləri əsgər Rəşidovun da nümunəvi hərbi qulluqçu, intizamlı və qabiliyyətli döyüşçü olduğunu söylədilər.



- Mən Azərbaycanın əsgəriyəm, - əsgər Şiriyev qürur hissilə dedi. - Hamı kimi mən də Vətənimə öz əsgəri borcumu verməyə gəlmişəm. Hərbi xidmətə yola düşəndə valideynlərim də ləyaqətlə xidmət etməyi, onların başını uca etməyi tövsiyə ediblər. Mən də çalışıram ki, onların başını uca edim.

- Hələ hərbi xidmətə gəlməzdən qabaq əsgəri dostluğun möhkəm olduğunu eşitmişdim, - əsgər Rəşidov gülümsünür. - Burada mən gördüm ki, o sözlər doğrudur. Hamımız, o cümlədən digər silahdaşlarımız bir ailənin üzvləriyik. Yeməyimiz, içməyimiz, xidmətimiz birdir. Burada hamımız bir-birimizə dayağıq. Belə şəraitdə necə dost, qardaş olmamaq olar?!

Əsgərin sözlərindəki həqiqəti hərbi xidmət, döyüş yolu keçmiş hər kəs təsdiq edə bilər. Əslində hər birimizi qırılmaz tellərlə bağlayan Vətənimizdir, Azərbaycandır.

Şair demişkən, Vətən gözdür, biz kirpik. Vətənimizin təhlükəsizliyi millətimizin təhlükəsizliyidir, ana-bacılarımızın, övladlarımızın təhlükəsizliyidir. Əldə silah Vətənimizin keşiyində dayanmaq, onu göz bəbəyi kimi qorumaq hər bir Azərbaycan vətəndaşının müqəddəs vəzifəsidir. Xoşdur ki, çağırış yaşı çatmış Vətən oğulları valideynlərinin və əzizlərinin xeyir-duası ilə hərbi xidmətə yollanır, müsəlləh əsgər olaraq doğma Azərbaycanımızın müdafiəsinə öz töhfələrini verirlər.

**Əbülfət QASIMOV,
"Azərbaycan Ordusu"**

## Unutmayaq!

***1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

***Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.***
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.***
***Qazax rayonunun Yuxarı Əskipara, Aşağı Əskipara, Sofulu, Bağanıs-Ayrım, Qızıl Hacılı, Barxudarlı və Xeyrimli kəndləri (1990-1992) - 75 kv.km.***
***Laçın (18 may 1992-ci il) - 1835 kv.km.***
***Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.***
***Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.***
***Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.***
***Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.***
***Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.***
***Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.***

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

*18 iyun - Milli İnsan Hüquqları Günüdür*

# İnsan hüquqları müasir dünyada aktualdır




***İnsan hüquqları anlayışı qədim dövrlərdə də işlədilib. Hələ eramızdan əvvəlki dövrdə Afina və Romada bu ideyalar meydana gəlməyə başlamışdır. Bu fikirlər insan hüquqlarının ilk rüşeymləri idi. Buna misal olaraq, ilk demokratlardan olmuş afinalı Periklin xalqın xeyrinə həyata keçirdiyi islahatları və ya qədim Romada plebeylerlə patrisilər arasında gedən mübarizəni göstərə bilərik.***

Cəmiyyət inkişaf etdikcə insanlar öz hüquqları uğrunda daha mütəşəkkil mübarizə aparmağa başlayıblar. 1215-ci ildə İngiltərədə dünya tarixində insan hüquqlarına dair ilk sənəd - "Böyük Azadlıqlar Xartiyası" qəbul olunub ki, bu sənəd indi də öz əhəmiyyətini qoruyur. Bu sənədin qəbulundan sonra İngiltərədə insan hüquqları uğrunda mübarizə daha da güclənib. Bütün bunlara baxmayaraq, insan hüquqları ilk dəfə XVII əsrdə öz elmi izahını tapıb. Bu dövrün böyük mütəfəkkirləri Monteskyö, Russo, Hobbs, Lokk və başqaları insanların ayrılmaz, təbii hüquqlarının olduğunu göstərir və deyirdilər ki, bu hüquqları onlardan heç kəs, hətta dövlət belə ala bilməz. Bu liberal fikirlər iki əsas sənəddə - 1776-cı ildə ABŞ-da qəbul olunmuş İstiqlaliyyət Bəyannaməsində və 1789-cu ildə Fransada qəbul olunmuş "İnsan və vətəndaşların hüquqları haqqında bəyannamə"də öz əksini tapmışdır.

XX əsrin ortalarına kimi insan hüquqlarını hələ də bütün dünya ölkələri qəbul etmirdi. Bu yolda ilk addım BMT tərəfindən atıldı: 1948-ci il aprelin 10-da BMT-nin Baş Assambleyası Ümümdünya İnsan Hüquqları Bəyannaməsini qəbul etdi. Bəyannamə 30 maddədən ibarət idi. Burada göstərilirdi ki, irqindən, dərisinin rəngindən, cinsindən, dilindən, əqidəsindən, siyasi mənsubiyyətindən, milli və sosial mənşəyindən, əmlak vəziyyətindən və digər hallardan asılı olmayaraq, insanlar eyni hüquqlara malikdirlər.

Bütün dünyada olduğu kimi ölkəmizdə də Azərbaycan Prezidentinin 17 iyun 2007-ci il tarixli fərmanı ilə 18 iyun Milli İnsan Hüquqları Günü kimi qeyd olunur.

Müstəqil Azərbaycanın 1995-ci il noyabrın 12-də qəbul edilən Konstitusiyası ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə yanaşı, insan hüquqlarının və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi ön plana çıxarıb.

Konstitusiyada əksini tapmış bu strateji məqsəd ilk növbədə hüquq islahatları və insan hüquqlarının qorunması prinsipinin real həyatda tətbiqini zəruri edib.

Respublikamızda həyata keçirilən hüquqi islahatların ən mühüm mərhələlərindən biri insan hüquqlarının və azadlıqlarının müdafiəsində səmərəli hüquq müdafiə mexanizmi olan Ombudsman təsisatının yaradılması olub.

İnsan hüquqlarının təmin olunmasını ümumdövlət vəzifəsi hesab edən ulu öndər Heydər Əliyevin ilk dəfə insan hüquqları üzrə müvəkkil institutunun təsis edilməsi üçün 22 fevral 1998-ci il tarixli "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərmanı, habelə 18 iyun 1998-ci il tarixli sərəncamı ilə təsdiq edilən Dövlət Proqramında İnsan Hüquqları üzrə Müvəkkili təsisatının yaradılması nəzərdə tutulub. Ombudsman təsisatının yaradılması hüquqi dövlət quruculuğu istiqamətində aparılan islahatların məntiqi davamı idi.

2001-ci il dekabrın 28-də isə Milli Məclis "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili haqqında" Konstitusiya Qanununu qəbul etmişdir. Müvəkkil təsisatının yaradılması və fəaliyyəti üçün maddi və hüquqi baza formalaşdırılıb. 2002-ci il martın 5-də ulu öndər Heydər Əliyev "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə fərman imzalamışdır.

Prezident İlham Əliyevin 2006-cı il dekabrın 28-də imzaladığı "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsi haqqında" sərəncamında Azərbaycanın müasir inkişaf dövründə hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində səylərin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi göstərilmişdir.

Azərbaycanda aparılan demokratik hüquqi islahatlar insan hüquqlarının müdafiəsi sahəsində mühüm irəliləyişlərin əldə edilməsinə şərait yaradıb və ötən bu müddət ərzində ölkəmiz bir çox hüquqi aktlara qoşulub.

1998-ci ilin avqustunda BMT və Azərbaycan hökuməti arasında "İnsan hüquqları və demokratiyanın dəstəklənməsi sahəsində birgə layihə haqqında" memorandum imzalanıb.

Hər il Ombudsman Aparatı insan hüquqları üzrə silsilə tədbirlər həyata keçirir. İnsan Hüquqları üzrə Müvəkkilin regional mərkəzləri fəaliyyət göstərir. Bütün bunlar isə ölkədə insan hüquqlarının qorunmasına xidmət edir.

Azərbaycanda insan hüquqlarının qorunması istiqamətində görülən işlər beynəlxalq təşkilatlar tərəfindən daim yüksək qiymətləndirilir.

**Leytenant
Ceyhun CƏFƏRLİ,
"Azərbaycan Ordusu"**



# Ordumuzun salnaməsini yaradanlar

***Müdafiə Nazirliyi Sənədli və Tədris Filmləri Kinostudiyasının yarandığı gündən 22 illik zaman məsafəsi ötür. Bu illər ərzində kinostudiyanın əməkdaşları ən çətin vəziyyətlərdə belə üzərlərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəliblər. Ötən gün Sənədli və Tədris Filmləri Kinostudiyasında ildönümü münasibəti ilə tədbir keçirildi.***

Tədbiri Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəis müavini polkovnik Abdulla Qurbani açaraq ildönümü münasibəti ilə kollektivi təbrik etdi, onlara gələcək işlərində uğurlar arzuladı. Bildirdi ki, bu gün sizin üzərinizə böyük vəzifələr düşür. Müdafiə nazirinin cəbhə bölgələrinə səfərləri, zabit və əsgərlərlə görüşlərini, həmçinin keçirilən vətənpərvərlik tədbirlərini operativ şəkildə çəkib tarixləşdirmək əsas vəzifənizdir. Bu, çox məsuliyyətli işdir. Siz də sağ olun ki, vəzifələrinizin öhdəsindən bacarıqla gəlirsiniz.

Sonra şəxsi heyətin mükafatlandırılması haqqında Müdafiə nazirinin şəxsi heyət üzrə müavini - Şəxsi Heyət Baş İdarəsi rəsinin əmri oxundu. Müvafiq əmrlə nümunəvi xidmətinə görə, Sənədli və Tədris Filmləri Kinostudiyasının bir qrup əməkdaşı fəxri fərmanla və qiymətli hədiyyələrlə mükafatlandırıldı.

Kollektivin nümayəndələrindən Ramazan Səməroğlu və Həcərxanım Məmmədova söz alaraq bundan sonra da xidməti vəzifələrinə məsuliyyətlə yanaşacaqlarını qeyd etdilər.

Sənədli və Tədris Filmləri Kinostudiyasının rəisi polkovnik-leytenant Samir Əfəndiyev çıxış edərək göstərilən diqqət və qayğıya görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirdi.

**"Azərbaycan Ordusu"**

*Yeni kitablar*

# Müharibədən bəhs edən toplu

***Şairə Dəstəgül Zamanlının yenicə çapdan çıxmış kitabı belə adlanır: "Biz məğlub olmamışıq..." Bu, müəllifin ikinci kitabıdır. Bir neçə il əvvəl Dəstəgül "Saçlarımda çiçəkləyir həsrətin" adlı şeirlər kitabı ilə oxucularla görüşə gəlmişdi. Gözəl şeirlər yazan Dəstəgülün bu kitabı isə poeziya aləmindən, şeir dünyasından bəhs eləmir. Müəllif bu kitabında Qarabağ müharibəsindən, bu döyüşlərdə iştirak edən əsgərlərdən və torpaq uğrunda şəhid olmuş oğullarımızın taleyindən söz açır.***




"Biz məğlub olmamışıq…" kitabının səhifələrindən top-tüfəng səsləri eşidilir. Kitabın redaktorları ehtiyatda olan polkovnik Mehdi Mehdiyev, Azərbaycan Milli Elmlər Akademiyası Folklar İnstitutunun aparıcı elmi işçisi, Azərbaycan Yazıçılar Birliyinin Şamaxı bölməsinin sədri, filologiya elmləri doktoru Seyfəddin Qəniyevdir.

Kitabda Qarabağ uğrunda gedən döyüşlərdə hünər göstərmiş zabit və əsgərlər haqqında geniş məlumatlar var. Mlli Qəhrəmanlar və şəhidlər haqqında qələmə alınmış portret-oçerklər düşmənə nifrət hissi oyadır.

Müəllifin oxuculara müraciətində bu sətirləri oxuyuruq: "… Qoy gələcək nəsillər görsün ki, xalqımızın tarixindəki qəhrəmanlar, təkcə keçmiş zamanlarda igidlikləri haqqında dastanlar yaradılmış Koroğlu, Babək, Şah İsmayıl Xətai, Qaçaq Nəbi və başqaları ilə bitmir. Azərbaycanın ayrılmaz və müqəddəs bir parçası olan Qarabağ uğrunda döyüşlərdə öz cəsarəti ilə düşməni qorxuya salan, igidliyi ilə aləmə səs salan Milli Qəhrəmanlar - Şirin Mirzəyev, Allahverdi Bağırov, Valeh Müslümov, Fəxrəddin Musayev, Elşad Əhədov kimi övladları içərisində bu gün də Mübariz İbrahimov kimi təkbaşına düşmən üstünə gedən, ermənilərdən qisas alan cəsur oğulları var".

Bu yaxınlarda Silahlı Qüvvələrin Baş Klinik Hospitalında kitabın təqdimat mərasimi keçirildi. Polkovnik-leytenant Əlhüseyn İsbatov və hospitalın həmkarlar komitəsinin sədri Stepan Retroviç Krepoçer çıxış edərək vətənpərvərlik mövzusunda yazılmış bu kitabı yüksək dəyərləndirdilər.

Keçmiş döyüşçü, şəhid atası, ehtiyatda olan mayor Əkbər Rüstəmov, şairə Gülnigar Rəhimli də çıxışlarında "Biz məğlub olmamışıq…" kitabı haqqında ürək sözlərini dedilər. "Əsrin ziyalıları" İctimai Birliyinin sədri Məleykə Göyçəli kitabın tərbiyəvi əhəmiyyətindən ətraflı danışdı və belə bir kitabı yazıb araya-ərsəyə gətirdiyinə görə, müəllifə "Fəxri diplom" təqdim etdi.

Biz də öz növbəmizdə Dəstəgül Zamanlıya yaradıcılıq yollarında uğurlar arzulayırıq.

**Mayor
Vahid MƏHƏRRƏMOV,
"Azərbaycan Ordusu"**

# İdman

## "Bakı-2015" birinci Avropa Oyunlarının Məşəl proqramının Bakıdan keçəcək marşrutu ictimaiyyətə açıqlanıb




İyunun 2-də "Fairmont Baku" mehmanxanasında "Bakı-2015" birinci Avropa Oyunlarının Məşəl proqramının Bakıdan keçəcək marşrutu ictimaiyyətə açıqlanıb.

Mötəbər yarışın başlanmasına 10 gün qaldığını bildirən gənclər və idman naziri Azad Rəhimov ölkəmizin "Bakı-2015"-ə tam hazır olduğunu diqqətə çatdırıb. Qeyd edib ki, arenalar artıq yarışların keçirilməsi üçün hazır vəziyyətdədir. Yaxın günlərdə qonaqların qarşılanmasına başlanılacaq.

"Bakı-2015"-in mərasimlər üzrə şöbəsinin prodüseri Keyt Hinçlayf Məşəl proqramının Bakı marşrutu barədə məlumat verib. Bildirib ki, iyunun 7-də məşəl Bakıya gətiriləcək. Ertəsi gün birinci Avropa Oyunlarının təşkil olunacağı doqquz idman obyektindən keçəcək. İyunun 9-da isə İçərişəhərə səyahət edəcək. Bir gün sonra məşəl Bakının mədəniyyət və memarlıq obyektlərinə gətiriləcək. İyunun 11-də məşəl Qız Qalasında olacaq və ertəsi gün birinci Avropa Oyunlarının açılış mərasiminin keçiriləcəyi Bakı Olimpiya Stadionuna gətirilməzdən əvvəl Xəzər dənizinin sahilində yerləşən Satko limanına aparılacaq.

Qeyd edək ki, birinci Avropa Oyunlarında qitənin 6 mindən çox idmançısı birincilik uğrunda mübarizə aparacaq.

## Yunan-Roma güləşi üzrə yığma komandanın açıq məşqi keçirilib



Güləş üzrə Azərbaycan yığma komandaları birinci Avropa Oyunlarına hazırlıqları davam etdirirlər. AZƏRTAC xəbər verir ki, Olimpiya Güləş Mərkəzində hazırlıq keçən yunan-Roma güləşçilərimizin mətbuat üçün açıq məşqi olub.

Komandanın baş məşqçisi Cəmşid Xeyrabadi dünya kubokunda qazanılan tarixi nailiyyəti xüsusilə vurğulayaraq, güləşçilərimizin qarşıdakı yarışlara böyük məsuliyyətlə hazırlaşdıqlarını bildirib. O deyib ki, komandanın bütün üzvləri - həm güləşçilər, həm də məşqçilər birinci Avropa Oyunlarında Azərbaycanın üçrəngli bayrağını dalğalandırmaqda qətiyyətlidirlər. Bunun üçün güləşçilərimiz var gücləri ilə mübarizə aparacaqlar.

## Qadın voleybolçularımız Avropa çempionatının finalına yüksəlib



Qadın voleybolçulardan ibarət Azərbaycan millisi Avropa çempionatının pay-off mərhələsi çərçivəsində səfərdə keçirdiyi cavab oyununda Slovakiya yığması ilə qarşılaşıb və rəqibinə 0:3 (26:24; 25:19; 25:18) hesabı ilə məğlub olub.

Bakıda keçirilən ilk görüşdə Azərbaycan komandası Slovakiya yığmasına 3:0 hesabı ilə qalib gəldiyi üçün "qızıl set"ə ehtiyac duyulub. "Qızıl set"də rəqibindən 15:6 üstün olan komandamız Avropa çempionatının finalına yüksəlib.

## FİDE-nin reytinq cədvəli açıqlandı



Beynəlxalq Şahmat Federasiyası (FİDE) iyun ayı üçün reytinq cədvəlini açıqlayıb. Apasport.az saytının məlumtına görə, həmyerlilərimizdən heç kim iyun ayının siyahısında ilk 20-likdə yer ala bilməyib.

2738 reytinq xalına sahib olan Teymur Rəcəbov 22-ci, 2735 xallı Şəhriyar Məmmədyarov isə 23-cü sırada qərarlaşıb. İlk 100-lükdə başqa təmsilçimiz yer almayıb.

## "İlk Avropa Oyunlarına sən də qoşul" devizi altında veloyürüş keçirilib



Yeni Azərbaycan Partiyası (YAP) Gənclər Birliyi və Azərbaycan Velosiped İdmanı Federasiyasının birgə təşkilatçılığı ilə "Bakı-2015"-ə dəstək məqsədilə "İlk Avropa Oyunlarına sən də qoşul" devizi altında veloyürüş keçirilib.

AZƏRTAC xəbər verir ki, yürüşdə 100-dən artıq velosipedçi iştirak edib. YAP Gənclər Birliyinin ofisi qarşısından start verilən yürüş Olimpiya Stadionunun yanında yekunlaşıb.

**Hazırladı:
Ə.MƏHƏRRƏMOĞLU**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 487
Nüsxə 4600